# Dövlət qulluqçusu qanunun aliliyinin hər şeydən üstün olduğunu unutmamalıdır



***Azərbaycanın iqtisadi potensialının möhkəmləndirilməsi ilə dövlətin idarə olunmasında mühüm vasitə olan dövlət xidməti də müasir tələblərə uyğun olaraq, daim təkmilləşdirilir. Müstəqilliyin bərpasından sonra ölkədə dövlət qulluğu ilə bağlı bütün hüquqi aktlarda cəmiyyətin inkişafından irəli gələn, dövlət–vətəndaş münasibətlərini tənzimləyən normalar müəyyən edilib, dövlət qulluqçularının hüquq və vəzifələri ilə yanaşı, onların məsuliyyəti də artırılıb. Buna görə də, müasir dövlət idarəçiliyində dövlət qulluqçularının vətəndaşlara münasibəti, onların dövlət və cəmiyyət qarşısında məsuliyyətinin artırılması xüsusi əhəmiyyət daşıyır. Bununla bağlı Prezident İlham Əliyev çoxsaylı çıxışlarında məmur–vətəndaş münasibətlərində qanunun tələblərinin yüksək səviyyədə təmin olunmasının zəruriliyini vurğulayır və vətəndaş məmnuniyyətinin dövlətin hər bir qulluqçusu üçün vacib dəyər olduğunu diqqətə çatdırır.***

Heç kəsə sirr deyil ki, dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyi cəmiyyətin hərtərəfli inkişafına, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına, eləcə də dövlət–vətəndaş münasibətlərinin yaxşılaşmasına verilən töhfə ilə ölçülür. Buna görə də, təsadüfi deyil ki, dövlət qulluqçusunu dövlət idarəetmə sisteminin və şəffaflığının güzgüsü adlandırırlar. Bu güzgünün saflığı hər bir dövlət qulluqçusunun fəaliyyətindən, davranışından, prinsiplərə sadiqliyindən, bir sözlə, mənəvi keyfiyyətlərindən daha çox asılıdır. Ona görə də, Prezident İlham Əliyev çıxışlarında hər bir dövlət qulluqçusunun davranışının cəmiyyət üçün nümunə olmasının əhəmiyyətinə toxunur, vətəndaşın problemlərinin həllində üzərinə düşən öhdəliklərin yüksək səviyyədə yerinə yetirilməsinin ölkənin hərtərəfli inkişafı baxımından zəruri amil olduğunu diqqətə çatdırır. Ölkə başçısı dövlət qulluqçularını həmişə xəbərdar edir ki, məmurlar daim insanlarla təmasda olmalıdırlar, onların problemlərini həll etməyə çalışmalıdırlar. Prezident İlham Əliyev bu vəzifələri bütün məmurlar qarşısında qoyaraq həmişə vurğulayır ki, hər bir dövlət məmuru xalqa xidmət etməlidir.

Azərbaycan lideri İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edərkən də, bir daha diqqətə çatdırıb ki, ilk növbədə, rayonlarda vəziyyət geniş təhlil olunmalıdır, mövcud nöqsanlar aşkar edilməli və aradan qaldırılmalıdır. Təbii ki, zaman keçir, həyat dəyişir, bütün məsələlərdə işə yanaşmalar dəyişir. Buna görə də, dövlət qulluğunda işləmək üçün insanlar, sadəcə, peşəkar olmamalı, insanlarla işləməyi bacarmalıdırlar və bu da önəmlidir. Təbii ki, öz ölkəsinə, xalqına sadiq olmalıdırlar. Prezident İlham Əliyev yeni icra başçıları ilə görüşündə onların qarşısına konkret vəzifələr qoydu: "Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz". Ölkə başçısı əlavə edib ki, dövlət orqanları tərəfindən həll olunmalı məsələlər üçün aidiyyəti orqanlara müraciət olunmalıdır.

Bu gün Azərbaycan sosial dövlət statusunu möhkəmləndirməkdə davam edir. Sosial ədalətin və vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində kompleks addımların atılması, sosial-iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayır. Dövlət yürüdülən sosial siyasətlə hər zaman və bütün məsələlərdə vətəndaşın yanında olduğunu təsdiqləyir. Xüsusən də sosial sahədə həyata keçirilən tədbirlərin miqyasına görə Azərbaycan fərqlənir. Dövlətin sosial siyasətinin nəticələri istisnasız olaraq əhalinin bütün təbəqələrini əhatə edir. Buna görə də, dövlət sosial ədalət prinsiplərinin qorunmasını özünün mühüm vəzifəsi hesab edir və bu prinsiplərə əməl olunmasını strateji vəzifəsi sayır. Prezident İlham Əliyev yeni icra başçılarının diqqətinə çatdırdı ki, onlar fəaliyyətlərində sosial ədalət prinsipinə əməl etməlidirlər: "Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq".

Bu gün Azərbaycan cəmiyyətinin həmrəylik nümayiş etdirdiyini vurğulayan ölkə başçısı əlavə edib ki, cəmiyyətimiz ölkədə gedən prosesləri bəyənir, dövlətin xarici və daxili siyasətini dəstəkləyir. Prezident bu dəstəyin əsasında dövlətin yürütdüyü siyasətin Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndiyi ilə əlaqələndirib.

Ümumiyyətlə, Prezident İlham Əliyevin siyasəti sosial ədalət prinsipinə əsaslanır. Azərbaycan vətəndaşları bu qayğını daim hiss edirlər. Azərbaycanın iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətləri və uğurları gündən-günə genişlənir. İqtisadi və müdafiə qüdrəti, elmi-texniki inkişaf, ölkənin bütün sahələrdə tərəqqisi onu regionun qabaqcıl dövlətlərindən birinə çevirib. Ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq həyata keçirilən sosial siyasət vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına, problemlərinin həllinə, cəmiyyətdəki neqativ halların aradan qaldırılmasına, insanların gündəlik tələbatının ödənilməsinə xidmət edir. Xüsusilə də şəhid ailələrinə, qazilərə və veteranlara dövlət qayğısı gücləndirilir. Prezident İlham Əliyev bununla bağlı diqqətə çatdırıb ki, şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir: "Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir". Ölkə başçısı xüsusilə vurğulayıb ki, qələbəyə görə şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq.

Bununla belə, dövlət başçısı dövlət qulluqçularına bir daha xəbərdarlıq edib. Bildirib ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimizin olduqlarını heç kəs unutmamamılıdır. "Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir".

Dövlər rəhbəri kimi fəaliyyətinin ilk günlərindən cəmiyyətdə dürüstlüyün və şəffaflığın təntənəsinə çalışan Prezident İlham Əliyev bu məsələdə vətəndaşların, xüsusilə də həssas sosial təbəqələrdən olan vətəndaşların problemləri ilə bilavasitə bağlı olan dövlət məmurlarının qarşısında ciddi vəzifələr qoyur. Bir sözlə, Azərbaycan vətəndaşlarının gündəlik həyatda qarşılaşdıqları hər hansı problemi həll edərkən dövlət orqanlarının diqqətli və nümunəvi davranışı hazırda dövlət orqanlarının qarşısında dayanan mühüm vəzifədir və bu vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsini tələb edir.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən birini regionların inkişafı təşkil edir. Neft strategiyasının həyata keçirilməsi və ölkəmizə xarici valyutanın daxil olması regionların sosial-iqtisadi problemlərinin həlli üçün sabit maliyyə resursları yaradıb. Qəbul olunmuş dövlət proqramları ölkənin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymaqla yanaşı, bölgələrdə yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, eləcə də istehsal və emal müəssisələrinin istehsalının həcminin və keyfiyyətinin yüksəldilməsinə şərait yaradıb. Bu proqramlar, eyni zamanda, biznes mühitinin daha da yaxşılaşdırılmasında, iqtisadiyyata investisiyaların artırılmasında, məşğulluğun artırılmasında və yoxsulluğun azaldılmasında mühüm rol oynayıb.

İcra hakimiyyəti başçıları ilə görüşündə Prezident İlham Əliyev regionların inkişafının diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini vurğulayıb və rayon rəhbərlərinin inkişafa təkan verəcək təşəbbüslərlə çıxış etmələrinin vacib olduğunu nəzərə çatdırıb: "Rayonların inkişafı ilə bağlı siz özünüz təşəbbüs göstərməlisiniz. Bəzi hallarda yerli icra orqanları bir qədər tənbəllik edirlər, ya gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da ki, sahibkar gəlib onların qapısını döyəcək. Belə olan halda, bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür". Dövlət başçısı tapşırıq verib ki, icra hakimiyyəti rəhbərləti fəallıq göstərərək, istər yerli, istərsə xarici sahibkarları rayonlara cəlb etməlidirlər. Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialının çox zəngin olduğunu nəzərə çatdıran Prezident bu rayonların turizm mərkəzinə çevirməyin əsas vəzifələrdən biri olduğunu qeyd edib.

Əlbəttə, dövlətin inkişafında dövlət qulluqçularının rolu böyükdür. Azərbaycanın sürətli inkişafında məmurların xidməti danılmazdır. Ancaq yeni dövrün tələbləri hər bir dövlət qulluqçusundan yüksək davranış tələb edir, onların qarşısında ölkə rəhbərliyinin tapşırıq və göstərişlərinə yüksək səviyyədə əməl etmək vəzifəsi qoyur. Xüsusilə də sürətlə inkişaf edən Azərbaycanın tərəqqisinə mane olan faktorların aradan qaldırılmasında məmurlar fəal olmalıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə ki, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq. İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın".

Buna görə də, dövlət qulluqçusu Prezident İlham Əliyevin tələblərinə uyğun davranmalı və qanunun aliliyinin hər şeydən üstün olduğunu unutmamalıdır.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***